# Təhsil işçilərinin peşəkar inkişafına dəstək

## Müəllimlərlə bağlı texniki yardım layihəsi yekunlaşıb

Mayın 3-də STEAM İnnovasiya Mərkəzində Koreya Beynəlxalq Əməkdaşlıq Agentliyinin (KOICA) maliyyə dəstəyi ilə həyata keçirilən “Müəllimlərin potensialının artırılması və Azərbaycan Respublikasının Təhsil Nazirliyi üçün təhsil informasiya sisteminin yaradılması” texniki yardım (qrant) layihəsi çərçivəsində təhvil-təslim mərasimi keçirilib. Tədbirdə elm və təhsil nazirinin müavini Həsən Həsənli, Koreya Respublikasının ölkəmizdə fövqəladə və səlahiyyətli səfiri Lee Eun Yong, Təhsil Sisteminin İnformasiyalaşdırılması İdarəsinin rəisi Vüsal Xanlarov və digər rəsmilər iştirak ediblər.



Tədbirdə çıxış edən elm və təhsil nazirinin müavini Həsən Həsənli Azərbaycan və Koreya arasında təhsil sahəsində əməkdaşlığın dinamik inkişafını vurğulayaraq iki ölkə arasında bu sahədə təcrübə mübadiləsinin aparılması baxımından layihənin əhəmiyyətini qeyd edib.

Müvafiq layihə çərçivəsində Koreya təcrübəsi üzrə Azərbaycan dilində müəllimlərin ixtisasartırma proqramının ilk milli elektron məzmunu hazırlandığını qeyd edən nazir müavini öyrədici təhsil resurslarının yaradılmasının zəruriliyini bildirib.

Koreya Respublikasının ölkəmizdə fövqəladə və səlahiyyətli səfiri Lee Eun Yong çıxışında adıçəkilən texniki yardım layihəsinin Koreya Respublikası və Azərbaycan arasında təhsil sahəsində uğurlu əməkdaşlığı əks etdirdiyini qeyd edib. Səfir Koreya Respublikasının təhsil sahəsində ölkəmizlə mövcud əməkdaşlığının daha da genişlənməsində maraqlı olduğunu vurğulayıb.

Daha sonra “Müəllimlərin potensialının artırılması və Azərbaycan Respublikasının Təhsil Nazirliyi üçün təhsil informasiya sisteminin yaradılması” texniki yardım layihəsinin rəhbəri İnseak Yoo layihənin komponentləri üzrə yekun hesabatla çıxış edib. İnseak Yoo layihənin 2019-2022-ci illəri əhatə etməsinin nəzərdə tutulduğuna baxmayaraq, COVID-19 pandemiyası səbəbindən 2023-cü ildə tamamlandığını diqqətə çatdırıb.

Sonda Təhsil Sisteminin İnformasiyalaşdırılması İdarəsinin rəisi Vüsal Xanlarov, Koreya Beynəlxalq Əməkdaşlıq Agentliyinin (KOICA) Azərbaycan üzrə ofisinin rəhbəri Jong Hyun Moon və layihənin rəhbəri İnseak Yoo tərəfindən təhvil-təslim aktı imzalanıb. Tədbir iştirakçıları STEAM İnnovasiya Mərkəzində yaradılan Studiya Otağı ilə tanış olublar.



Qeyd edək ki, Azərbaycan Respublikasının Elm və Təhsil Nazirliyi və Koreya Beynəlxalq Əməkdaşlıq Agentliyi (KOICA) arasında Azərbaycan Respublikasının Nazirlər Kabinetinin müvafiq sərəncamları ilə “Müəllimlərin potensialının artırılması və Azərbaycan Respublikasının Təhsil Nazirliyi üçün təhsil informasiya sisteminin yaradılması”texniki yardım (qrant) layihəsi təsdiq edilib. Elm və Təhsil Nazirliyi tərəfindən layihənin icraçısı Təhsil Sisteminin İnformasiyalaşdırılması İdarəsi (TSİİ), benefisiarı kimi TSİİ və Azərbaycan Respublikasının Təhsil İnstitutu çıxış ediblər.

Layihənin əsas məqsədi təhsil işçilərinin peşəkar inkişafına dəstək məqsədilə elektron öyrənmə portalının, təhsil məzmunlarının yaradılması üçün studiya otağının qurulması, Azərbaycan dilində milli elektron məzmunlarının yaradılması mexanizminin formalaşdırılması və nazirliyin informasiya sisteminin gücləndirilməsi olub.

**Lamiyə ƏLİMƏRDANOVA**